# Özbəkistanda muğam təntənələri

**UNESCO və İSESCO-nun himayəsi altında Özbəkistanın Cizzax vilayətinin Zamin şəhərindəki “Zaminsoy” kompleksində keçirilən II Beynəlxalq Muğam Sənəti Forumu başa çatıb. İyunun 27-dən 30-dək keçirilən musiqi bayramına dünyanın 80-dən artıq ölkəsindən gələn 400-dən çox nümayəndə qatılıb.**



Forum çərçivəsində baş tutan “Muğam sənətinin inkişaf perspektivləri: nəzəri və praktiki əsaslar” mövzusunda beynəlxalq elmi-praktik konfransın sonuncu günündə Azərbaycan Milli Konservatoriyasının (AMK) prorektoru, professor Lalə Hüseynova və AMK-nin müəllim və doktorantı Fərdin Məmmədzadə “Azərbaycan muğam-dəsgahlarında bərdaşt bölməsi”, Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Sehranə Qasimi isə “Milli musiqi aspektində Azərbaycan muğamı” mövzularında məruzələr ediblər. Dünyada muğamın təbliği və populyarlaşması istiqamətində qarşıda duran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, bir sıra təkliflər irəli sürülüb.

***

Musiqi yarışmasında ölkəmizi “Vətən” musiqi qrupu – xanəndələr Nisbət Sədrayeva, Səfalı Mirzəliyev, Ruslan Zərbəliyev (tar), Pərviz Fərhadov (kamança) və Səyavuş Kərimov (nağara) təmsil ediblər.

Festivalın beynəlxalq münsiflər heyətinin tərkibində Azərbaycan, Amerika Birləşmiş Ştatları, Türkiyə, Hindistan, Misir və Özbəkistan nümayəndələri təmsil olunublar. Musiqi bayramının sonuncu günü qaliblərin adları elan edilib. İran nümayəndəsi “Qran pri” alıb. “Vətən” musiqi qrupuna festivalın diplomu, müxtəlif hədiyyələr və pul mükafatı təqdim edilib.

Xatırladaq ki, I Beynəlxalq Muğam Sənəti Forumu 2018-ci il sentyabr ayında Özbəkistanın Şəhrisəbz şəhərində keçirilib və Azərbaycandan gələn “Muğam” qrupu 1-ci mükafata layiq görülüb.




***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Özbəkistan, Zamin şəhəri**